# İŞĞALDAN AZAD OLUNMUŞ RAYONLARIN SU RESURSLARI

**Rafiq Verdiyev[1], Rəşad Verdiyev[2]**

[1]*Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidməti*
[2]*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Çoğrafiya İnstitutu*

Qarabağ və Şərqi Zəngəzur ərazilərinin çayları Kür və Arazın hövzələrinə aiddir. Burada yerləşən dağların uca zirvələri bu hövzələr arasında suayrıcı təşkil edir. Burada olan çaylar əsasən yağış və qar suları ilə qidalanır və suyundan suvarmada istifadə olunur. Tərtər və Həkəri çayları vulkanik yayladan başlayır. Arpaçay və Bazarçayın mənbələri yaylanın şimal-qərb hissəsindədir. Bu çaylar əsasən yağış, qrunt və yeraltı sularla qidalanır. Ona görə də ilin isti yarısında daşırlar. Kiçik Qafqazın cənub-şərq yamacında axan Tərtərçay, Xaçınçay, Qarqarçay, Həkəriçay, Oxçuçay Mil və Qarabağ düzlərinin suvarılmasında böyük əhəmiyyət kəsb edir. Tərtər çayının qolları Tutqu, Lev və Ayrım çaylarıdır. Mənbəyi ilə mənsəbi arasındakı hündürlük fərqi 3117 m-dir. Çayın üzərində Sərsəng və Suqovuşan su anbarı yaradılmışdır.

Bərguşad çayı (Bazarçay) öz mənbəyini Ermənistan Respublikasından götürür. Kəlbəcər, Qubadlı və Zəngilan rayonlarının ərazisi ilə axaraq Araz çayına tökülür. Çayın çirklənməsi çayətrafı ərazilərdə yerləşən iri yaşayış məntəqələrində (Ermənistan ərazisində) yaranan sənaye və məişət-çirkab suları hesabına olur. Eyni problem öz mənbəyini Zəngəzur dağ silsiləsindən (Qapıcıq dağı) götürən və Zəngilan rayonunun ərazisində Arazaolan Oxçuçay Ermənistan Respublikası ərazisində yerləşən Qacaran mis-molibden, Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli suları və Qafan-Qacaran şəhərlərinin (o cümlədən kəndlərin, xəstəxanaların, kənd təsərrüfatı obyektlərinin) bioloji çirkli suları təmizlənmədən birbaşa Azərbaycan ərazisində Şərikan kəndinin qarşısında Oxçuçaya buraxılır ki, bu da çay hövzəsini «Ölü zonaya» çevirmişdir.

İşğaldan əvvəl ərazi çayları üzərində işğaladək əvvəl fəaliyyət göstərən 8 su anbarı ciddi antropogen təsirə məruz qalmış və 17 hidroloji stansiya tamamilə dağıdılmışdır. Çoxillik qiymətləndirməyə əsasən işğala qədər olan dövrdə ərazidən axan çayların ümumi su ehtiyyatı təxminən 2350 mln.m$^3$ təşkil edir ki, bu da ölkənin daxili su ehtiyatlarının təxminən 24%-ni təşkil edirdi. Halhazırda Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ərazidə su ehtiyatlarını yenidən qiymətləndirmək üçün monitorinq işləri davam edir və əsas çaylar üzərində 11 avtomat hidroloji stansiya quraşdırılmışdır. İlkin ölçmə nəticələrinə və analoqlardan istifadə etməklə aparılan hesablamalara görə ərazinin su resursları Kiçik Qafqazın digər çaylarında olduğu kimi iqlim dəyişmələrinin təsiri nəticəsində 12-15% azalmışdır.